

**FƏZAİL AĞAMALI,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## DÖVLƏT MÜSTƏQİLLİYİMİZDƏ HEYDƏR ƏLİYEV AMİLİ

Azərbaycanın dövlətçilik tarixində Heydər Əliyev fenomeninin oynadığı müstəsna rol siyasi aksiomadır. O, müstəqil Azərbaycan dövlətinin yaradıcısı və memarıdır. 10 ildir ki, Heydər Əliyev Azərbaycanda sivil, demokratik hüquqi və dünyəvi dövlət modelinin qurulması uğrunda gərgin mübarizə aparır və iftixar hissilə demək olar ki, artıq buna nail olmuşdur. Lakin Heydər Əliyev fenomeni və dövlət müstəqilliyi ideyaları arasındakı bağlılığın tarixi kökləri 30-35 il əvvələ gedib çıxır. Mövzuya bu zaman intervalı müstəvisində yanaşmaq daha obyektiv olardı. Bizcə, Heydər Əliyevin Azərbaycan dövlətçiliyindəki müstəsna rolunu üç əsas tarixi mərhələyə bölmək olar:

**a) 70-ci illərin qeyri-leqal hazırlıq mərhələsi**
**b) 90-cı illərin birinci yarsından fəal mübarizə mərhələsi**
**v) Dövlət quruculuğunun başa çatdırılması və möhkəmləndirilməsi mərhələsi**

* * *

Hələ Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə Heydər Əliyev böyük strateq kimi dövlət müstəqilliyinə zəmin yaradan siyasi, iqtisadi və hüquqi sahədə mühüm addımlar atmış və bu istiqamətdə çox ciddi nəaliyyətlər əldə etmişdir. Həmin illərdə Azərbaycanda aparılan misli görünməmiş quruculuq işlərini dövlət müstəqilliyimizə təminat verən əsas amillər kimi nəzərdən keçirmək lazımdır. O dövrün qısa tarixi panoramasını bir daha nəzərdən keçirmək maraqlı olardı.

Tarixi faktlar və arxiv sənədləri təsdiqləyir ki, əslində SSRİ-nin dağılması prosesi 70-ci illərin əvvəllərindən başlayıb. Kütləvi silahlanmaya külli-miqdarda vəsait xərcləyən Sovet İttifaqının iqtisadi inkişaf, intelektual mülkiyyət və müasir texnologiyalar baxımından Qərb ölkələrindən geridə qalması faktı açıq-aşkar sezilirdi. Kreml SSRİ-nin süqutunun qarşısını almaq üçün bütün imkanlarını səfərbər etsə də, geosiyasi proseslər imperiyanın məhvini diqtə edirdi. Məhz belə bir gərgin siyasi dövrdə Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldi. Təbii ki, SSRİ-də hansı proseslərin getdiyi və cəmiyyətə məlum olmayan, gizli saxlanılan problemlərin mahiyyətinin nədən ibarət olduğu Heydər Əliyevə bəlli idi.

Bütün bunları Heydər Əliyev görürdü və bu baxımdan çalışırdı ki, siyasi imkanlarından Azərbaycan dövlətçiliyinin qurulmasına zəmin yaradan faktorların təmin edilməsi naminə istifadə etsin. Yeri gəlmişkən, həmin dövrün statistikasına da toxunmaq maraqlı olardı. Azərbaycan, Ukrayna və Rusiya da daxil olmaqla, üç müttəfiq respublikadan biri idi ki, SSRİ büdcəsindən dotasiya almadan öz problemlərini təkbaşına həll etməyə qadir idi. Eyni zamanda həmin dövrdə Heydər Əliyev SSRİ rəhbərliyini inandıraraq və bir sıra maneələri dəf edərək Azərbaycan iqtisadiyyatının inkişafına diqqətin artırılmasına nail olmuşdu. Bu baxımdan maraqlı bir tarixi fakta diqqət yetirək. SSRİ Nazirlər Sovetinin qərarına əsasən, Zaporojestdə Yaponiya texnologiyası əsasında «Kondisoner» zavodunun tikintisi planlaşdırılırdı. O dövr üçün bu SSRİ iqtisadiyyatında misli görünməmiş yeniliklərdən biri idi. Tikintiyə başlamaq üçün SSRİ büdcəsindən külli-miqdarda vəsait ayrılmış və xaricdən mütəxəssislər dəvət edilmişdi. Lakin Moskvada üç gün çəkən gərgin danışıqlardan sonra SSRİ Nazirlər Soveti öz qərarını ləğv etdi, Heydər Əliyev həmin zavodun Bakıda inşasına razılıq ala bildi. Həmçinin maraqlıdır ki, həmin zavodda istehsal edilən kondisonerlər Azərbaycanı tanıdan nişanlarla xarici bazarlarda tez bir zamanda populyarlıq qazandı. Bu iqtisadi akt olsa da, onu Azərbaycanı təbliğ edən vasitələrdən biri kimi də qiymətləndirmək olar. Təbii ki, bu kimi faktlar çoxdur. Lakin birmənalı şəkildə onu qeyd etmək olar ki, Azərbaycanın dövlət müstəqilliyinin iqtisadi əsaslarının qurulması prosesinə 70-ci illərdən start verilib. Bu konteksdən Heydər Əliyevin 90-cı ilin əvvəllərində Türkiyənin «Zaman» qəzetinə verdiyi müsahibə diqqəti daha çox cəlb edir. Həmin müsahibədə Heydər Əliyev açıq şəkildə etiraf edib ki, o, 70-ci illərdə SSRİ-nin tənəzzülə doğru getdiyini açıq-aşkar sezdiyindən çalışırmış ki, Azərbaycan üçün müəyyən uğurların əldə olunmasına nail olsun: «Mən SSRİ respublikalarının nə vaxtsa müstəqillik əldə edəcəklərini düşünürdüm. O illərdə Azərbaycanın da müstəqil dövlət olmasını arzu edirdim. Məni istefaya getməyə məcbur edənlərin əsas məqsədi Azərbaycanın müstəqillik qazanmasının qarşısını almaq idi».

70-ci illərdə Azərbaycanın müstəqil dövlət olaraq mövcudluğunun təmin edilməsinə yönələn bir sıra kardinal addımlar da atılmışdı ki, onları da nəzərdən keçirmək maraqlı olardı. Faktiki olaraq Heydər Əliyev Azərbaycanı katostrofik situasiyalara qabaqcadan hazırlayırdı. Təsadüfi deyil ki, 91-ci ildə dövlət müstəqilliyi elan edildikdən sonra Azərbaycanın iqtisadi müstəqilliyi qibtə doğururdu. Lakin Heydər Əliyev fenomeninin unikallığı ondadır ki, o öz siyasətini heç bir zaman birtərəfli qurmur, onun gördüyü işlər kompleks tədbirlər sistemindən ibarətdir. Bu baxımdan 70-ci illərdə Azərbaycanda milli hərbi kadr hazırlığına başlanılması maraq doğurur. Müqayisə üçün qeyd edək ki, sovet hakimiyyəti illərində azərbaycanlılar hərbi kadr hazırlığına və SSRİ hərbi elitasına yaxın buraxılmırdılar. Halbuki, Azərbaycanın ərazisində SSRİ səviyyəsində strateji əhəmiyyət kəsb edən bir neçə ali hərbi məktəb var idi. Həmin məktəblərdə təhsil alan kursantların milli mənsubiyyəti Azərbaycan üçün həqiqətən acınacaqlı idi. Azərbaycan ərazisində yerləşməsinə baxmayaraq, bu məktəblərin minlərlə məzunu arasında yalnız beş-altı azərbaycanlı var idi və onların da çoxu «beynəlmiləl» ailələrin üzvləri idilər. Təbii ki, bu tendensiya da Heydər Əliyevi narahat etməyə bilməzdi. Maraqlıdır ki, 70-ci illərdən başlayaraq, Bakıdakı ali hərbi məktəblərə (Ali Ümumqoşun Komandirləri məktəbi və Zığdakı hərbi dəniz qüvvələri məktəbi) qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı. Hətta 1979-cu ilin statistikasına görə, kursantların 65 faizini azərbaycanlılar təşkil edirdilər. Lakin bununla belə Heydər Əliyev milli hərbi kadr hazırlığı sahəsində daha bir kardinal addım atdı. Cəmşid Naxçıvanski adına hərbi litseyin yaradılması imkan verdi ki, gənclərin marağı hərbi sahəyə yönəldilsin. Birmənalı şəkildə etiraf edilməlidir ki, bütün bunlar Azərbaycanın dövlət müstəqilliyinə hesablanan addımlar idi.

Lakin qeyd olunanlara rəğmən o da məlumdur ki, intelektual resurslar olmadan dövlət müstəqilliyinin təmin edilməsi mümkün deyil. Statistik rəqəmlər də təsdiqləyir ki, 70-ci illərə kimi Güney Qafqaz respublikaları arasında azərbaycanlılara SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almalarına süni maneələr yaradılır, hətta müyyən limit də qoyulurdu. Təbii ki, bunu tərəddüd etmədən milli ayrı-seçkiliyin elementlərindən biri kimi qiymətləndirmək olar. Məsələn, əgər 1965-1970 tədris ilində 210 erməni, 250 gürcü SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil alırdısa, həmin illərdə azərbaycanlıları barmaq hesabı ilə saymaq olardı. Və bir qayda olaraq azərbaycanlılara, əsasən, ədəbiyyat, musiqi və s. sahələrdə ittifaq miqyaslı ali məktəblərdə təhsil almalarına icazə verilirdi. Lakin 70-ci illərdən başlayaraq, bu istiqamətdə də ciddi dönüş əldə olundu. Təsadüfi deyil ki, həmin dövrdən başlayaraq, azərbaycanlılar iqtisadiyyat, hüquq və s kimi mühim elmi sahələrə cəlb edildilər. Hər il onlarla gəncin təhsil almaq üçün SSRİ ali məktəblərinə göndərilməsi prosesi başladı. Bu siyasət Heydər Əliyev tərəfindən Azərbaycanda intelektual mülkiyyətin qurulmasına yönəlik cəsarətli addımlar idi. Və təbii ki, sonradan bu proses Azərbaycan dövlətçiliyinin intelektual bazasına çevrildi.

Heydər Əliyevin Azərbaycanın dövlətçiliyinin varlığını təsdiqləyən rəmzlərə və atributlara da münasibəti çox həssas olmuşdur. Bu baxımdan 1977-ci ildə Konstitusiya layihəsi qəbul edilərkən, onun atdığı daha bir addımı məmunluqla xatırlamaq olar. Tarixi fakt olaraq qeyd etmək yerinə düşərdi ki, o zaman SSRİ Konstitusiyası layihəsinin hazırlanması üçün yaradılan komissiyada Heydər Əliyev, nəinki müsəlman-türk icmasını, hətta Güney Qafqazı təmsil edən yeganə siyasi xadim idi. Təbii ki, 77-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycanın rəsmi dövlət dili kimi Azərbaycan dilinin qəbul edilməsi də ölkəmiz üçün siyasi nəaliyyət idi. Çünki bununla bağlı Kreml emisarlarının dəfələrlə Bakıya səfərlər edərək, Heydər Əliyevi öz fikrindən daşındırmağa səylər göstərdikləri məlumdur. Həmçinin Azərbaycanın özündə də bəzi dairələr bundan istifadə edərək Kremli Heydər Əliyevə qarşı mübarizəyə çağırırdılar. Belə iddialar mövcud idi ki, guya bu konstitusion prinsip Azərbaycanda beynəlmiləlçilik ideyalarının əsas-

larını sarsıda bilər. Amma Heydər Əliyev, nəinki fikrindən daşındı, hətta onun hakimiyyəti illərində Bakıda Azərbaycan məktəblərinin sayı da artmağa başladı. Burada da statistikaya müraciət etmək maraqlı olardı. Əgər 70-ci illərə kimi, Bakıda rus dilində məktəblərin sayı Azərbaycan dilində təhsil verən məktəblərin sayı ilə müqayisədə 6040-a nisbətində idisə, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan məktəblərinin sayı kütləvi şəkildə artmağa başladı. Təsadüfi deyil ki, həmin illərdə SSRİ-də nəşr olunan yeganə «Türkologiya» jurnalı da Bakıda çap olunmağa başlamışdı. Halbuki jurnalın çapına Moskvada icazə verilməmişdi.

Bütün bunlar tarixi faktlardır. Və onlara əsaslanaraq cəsarətlə demək olar ki, Heydər Əliyevin 1969-82-ci illərdəki siyasi fəaliyyəti Azərbaycanın dövlət müstəqilliyinə zəmin yaradılması kimi strateji məqsəd üzərində köklənmişdi.

1982-ci ildə isə Heydər Əliyevin SSRİ Nazirlər Sovetinin birinci müavini təyin edilməsini sovet dövlətçiliyi tarixində türk-müsəlman mənşəli şəxsin siyasi taleyində baş verən ilk və sonuncu belə bir tarixi hadisə saymaq olar. Bu baxımdan 82-ci ildən sonra Heydər Əliyevin SSRİ elitasındakı yeri və roluna müsəlman xalqlarının təmsilçisi aspektindən yanaşmaq lazımdır. Bu mərhələ tarixdə xüsusi özəlliyi ilə seçilir. Çünki artıq SSRİ-in dağılması prosesinin sonuncu fazası başlamışdı. Eyni zamanda Qorbaçov guruhunun SSRİ-nin müsəlman xalqlarına qarşı yürütdüyü amansız siyasət Heydər Əliyevə münasibətdə də özünü büruzə verirdi. Bu baxımdan 1986-cı ildə Heydər Əliyevlə Mixail Qorbaçov arasında Siyasi Büronun iclasında baş verən ixtilaf barədə də söz açmaq maraqlı olardı. Tarixçi Sergey Afanasiyev həmin hadisəni belə qələmə alıb: «1986-cı ildə Qorbaçov müttəfiq respublikaların rəhbərlərini vəzifələrindən uzaqlaşdırmağa qərar vermişdi. Növbə Qazaxstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Dinmühəmməd Kunayevə çatdı. Qorbaçov və onun komandası təkid edirdi ki, Kunayev vəzifədən getməli və onun yerinə rus Kolbin təyin edilməlidir. Lakin Siyasi Büronun iclasında Heydər Əliyev bu təyinata etiraz edib. Bildirib ki, Kunayev işin öhdəsindən gəlir, yox əgər onu dəyişmək lazımdırsa bu yerə qazax, məsələn Nazirlər Sovetinin sədri Nazarbayev təyin edilməlidir». Afanasyev onu da qeyd edib ki, Heydər Əliyev bu təyinatın Qazaxstanda milli qarşıdurma yarada biləcəyi barədə də Siyasi Büronu xəbərdar edibmiş. Heydər Əliyevin proqnozları özünü doğrultdu. Belə ki, Qorbaçovun əli ilə Qazaxstanda hakimiyyətə gələn Kolbinin təyinatına etiraz edən minlərlə gənc Alma-Atanın küçələrinə axışdılar. Sovet ordusu aksiyanı zor gücünə yatırdı, onlarla insan həlak oldu. Bu tarixi fakt həm də onu göstərir ki, Heydər Əliyev Kremldə işlədiyi dövrlərdə Qorbaçov guruhunun müsəlman xalqlarına qarşı anneksiya siyasətinin qarşısını almaq üçün fəal mübarizə aparırmış. Müxtəlif maneələrin olmasına baxmayaraq, bu illər ərzində Heydər Əliyev Azərbaycana da qayğısını azaltmamış, əksinə bu istiqamətdə daha aktiv çalışmışdır. Qorbaçov guruhu tərəfindən istefaya göndərildikdən sonra da Heydər Əliyev Azərbaycanda milli dövlətçiliyin qurulması uğrunda aktiv fəallıq sərgiləmişdir. Təsadüfi deyil ki, Sovet İmperiyası ən ağır və sarsıdıcı zərbəni də məhz elə Heydər Əliyevdən aldı. 90-cı ilin qanlı yanvar hadisələri zamanı Heydər Əliyevin ailə üzvləri ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək imperiya əleyhinə radikal bəyanatlarla çıxış etməsi Azərbaycanda gedən müstəqillik uğrunda gərgin mübarizəyə son dərəcə ciddi bir töhfə idi. Həmin bəyanatın bəzi məqamları diqqəti xüsusilə cəlb edir. Heydər Əliyev qəti şəkildə bildirmişdi ki, SSRİ Azərbaycanın suveren hüquqlarına qəsd edib. O bundan sonra müstəqillik uğrunda mübarizəyə qoşulduğunu bəyan etmiş və həmin hadisələrdən sonra şəxsi həyatının təhlükə qarşısında olmasına baxmayaraq, Bakıya qayıtmışdır.



***

1991-ci ilin iyulunda isə Heydər Əliyevin Kommunist Partiyasından istefa verməsi isə Azərbaycanda antikommunist hərakatını daha da sürətləndirdi. Maraqlıdır ki, məhz ilk dəfə olaraq həmin bəyanatda Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi əsaslarını tezislər şəklində ifadə edib: «Mən Moskvanın israr etdiyi İttifaq müqaviləsinin əleyhinə çıxmışam. Hər hansı müstəqil dövlətin tərkibində bir neçə müstəqil dövlət ola bilməz. Bütün respublikalara iqtisadi və siyasi müstəqillik verilməli onların hüquqları tanınmalıdır. Azərbaycan Kommunist Partiyasına hakimiyyətdən əl çəkməyi, demokratik cəmiyyətin qurulması, siyasi plüralizmin təmin edilməsi üçün lazımi şərtlərin təmin edilməsini tələb edirəm». Bir daha xatırladaq ki, Heydər Əliyev bu bəyanatı 1991-ci ilin iyulun 19-da imzalayıb. Halbuki həmin dövrdə hələ Azərbaycanın dövlət suverenliyi barədə bəyannamə və dövlət müstəqilliyi barədə Konstitusiya aktı hələlik qəbul edilməmişdi. Həmçinin bu hadisənin 1991-ci ilin QKÇP prosesindən öncə baş verməsi göstərir ki, Heydər Əliyev siyasi intusiyasına əsaslanaraq hadisələrin hansı səmtə inkişaf edəcəyini qabaqcadan dəqiqliklə görürmüş. Və təsadüfi deyil ki, öz bəyanatında dövlət müstəqilliyi ideyalarının ilkin teziszlərini irəli sürərək cəmiyyətin səfərbər olunması naminə böyük addımlar atdı. Unutmaq lazım deyil ki, Heydər Əliyev 90-cı illərin əvvəllərində Ali Sovetin iclaslarında müstəqillik ideyaları ilə çıxış edən millət vəkillərindən olub. Eyni zamanda Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri işlədiyi dövrdə Azərbaycan Demokratik Respublikasının ənənələrini bərpa edən Heydər Əliyev üçrəngli istiqlal bayrağımızı muxtar qurumun rəmzi olaraq qəbul edib. Bununla da bütün respublika miqyasında ilk dəfə olaraq Azərbaycanın müstəqillik atributları bərpa olunub və dövlətçiliyin əsasları praktiki baxımdan real səciyyə daşımağa başlayıb.

Bütün bunlar Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsində və bu istiqamətdə cərayan edən proseslərin avanqardı olduğunu birmənalı olaraq təsdiqləyir. Lakin o da məlumdur ki, dövlət müstəqilliyinin elan edilməsi ilə heç də problemlər həll olunmur. 91-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də bu əslində formal xarakter daşıyırdı. Ayaz Mütəllibov öz sələflərinin ənənəsinə sadiq qalaraq ölkəni Moskvadan verilən direktivlərlə

idarə edirdi. Azərbaycan dövlətçiliyinə qarşı ən real təhlükə isə AXC-Müsavat hakimiyyəti dövündə yarandı. Elçibəy hakimiyyətinin səriştəsizliyindən sui-istifadə edən xarici dövlətlər hər vəhclə Azərbaycanı hərbi-siyasi platsdarma çevirməyə cəhd göstərir və çalışırdılar ki, ölkədə dövlət idarəçiliyi onların sifarişləri əsasında həyata keçirilsin. 1993-cü ildə baş qaldıran bu tendensiya Azərbaycan dövlətçiliyini sarsıtmağa qadir idi. Lakin obrazlı desək, Heydər Əliyev Azərbaycan dövlətçiliyini səriştəsiz AXC hakimiyyəti ilə Sürət Hüseynov qaragüruhu arasında gedən amansız mübarizələrin tapdağı altından xilas edə bildi. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının təbliği fundamental mahiyyət kəsb etməyə başladı. Eyni zamanda 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində də Heydər Əliyev Azərbaycan dövlətçiliyinin taleyini xilas edə bildi. Bu dövrün əsas xüsusiyyəti həm də ondan ibarətdir ki, Heydər Əliyev siyasi sabitliyi təmin etməklə demokratik dövlət modeli konsepsiyasını həyata keçirməyə başladı. Bu baxımdan həmin illərdə Azərbaycan dövlətçiliyi uğrunda apardığı fəal mübarizə daha çox maraq və heyranlıq doğurur. O da məlumdur ki, siyasi sabitlik təmin edilmədən hüquqi və demokratik dövlət modelinin qurulması mümkün deyil. Bu faktoru nəzərə alaraq Heydər Əliyevin ölkədə siyasi sabitliyi təmin etməsini Azərbaycan dövlətçiliyinə qarşı çıxan anarxist qüvvələrin məhvi kimi dəyərləndirmək olar. Siyasi sabitlik imkan verdi ki, Azərbaycan dövlətinin iqtisadi və hüquqi əsasları formalaşdırılsın. Təsadüfi deyil ki, Heydər Əliyev anarxist qüvvələrin zərərsizləşdirilməsindən sonra hüquqi, iqtisadi və demokratik sahədə kardinal islahatlar proqramının həyata keçirilməsinə start verdi.

Bu baxımdan Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında müstəqilliyinin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində görülən əsas işlərdən biri kimi dövlət quruculuğunun hüquqi bazasının yaradılması olub. 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Heydər Əliyevin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə düşüb. 1918-20-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin Əsas Qanununu qəbul edə bilməmiş, SSRİ dağıldıqdan sonra müstəqilliyinin ilk dönəmində hakimiyyətdə təmsil olunan qüvvələr dövlətçiliyin əsasını təşkil edən bu sənədin hazırlanması və qəbul olunması istiqamətində heç bir əməli iş görməmişdir. Yalnız Heydər Əliyevin təşəbbüsü nəticəsində 1995-ci ilin may ayında müstəqil Azərbaycanın ilk Konstitusiyasını hazırlamaq üçün müvafiq komissiya təşkil edilmiş və dövlətçiliyin əsas atributlarından biri sayılan bu mühüm sənəd həmin ilin noyabr ayının 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuşdur. İnsan hüquqlarına xüsusi önəm verilən, hakimiyyətin ayrı-ayrı qanadları arasında qarşılıqlı əlaqənin səlis mexanizmi təsvir olunmuş Konstitusiya haqlı olaraq dünya müstəvisində nəzəri baxımdan ən mükəmməl hüquqi sənədlərindən biri hesab olunur.



Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunması dövlətçiliyin əsaslarını möhkəmlətməklə yanaşı, həm də "müstəqilliyin dövlətləşməsi" istiqamətində görüləcək işlərin yeni mərhələsinin başlanğıcını qoydu. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Və bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirməyə və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynadı. Bununla da Azərbaycanın dünya dövlətləri sırasında özünəlayiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində fəaliy-yətin əsası qoyuldu.

* * *

Müstəqilliyinin dövlətləşdirilməsi, yəni nəzəriyyədən praktikaya keçid Heydər Əliyev siyasətinin əsas prioritet istiqamətini təşkil edir. Ümumiyyətlə, Heydər Əliyev siyasi kursu bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənir. Hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda mülki cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf istiqamətində görülən işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlimişdir. Bu istiqamətdə Heydər Əliyevin gördüyü ən böyük işlərdən biri müstəqil Azərbaycanın uğurlu neft strategiyasının hazırlanaraq həyata keçirilməsi olub. Azərbaycanın neft strategiyasının əsas prinsipləri ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır və bu strategiyanın həyata keçirilməsi iqtisadi maraqlarla yanaşı, milli təhlükəsizlik maraqlarının təmin olunmasına əsaslanır. Bu baxımdan Heydər Əliyevin həyata keçirdiyi uğurlu neft strategiyası təkcə dövlətin iqtisadi maraqlarının realizə olunmasına deyil, paralel olaraq dövlət müstəqilliyinin qorunub saxlanmasına yönəlik siyasi xətttin yürüdülməsinə, buna uyğun situasiyanın formalaşdırılmasına xidmət edir. Məhz bu strategiya nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bilmiş və zaman-zaman qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur. Yeni dünya düzənində güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun strategiya müəyyənləşdirməyə nail olmuş Heydər Əliyev son nəticədə Azərbaycanın hegemon supergüclərdən asılı vəziyyətə düşməsinin qarşısını nəinki ala bilmiş, eyni zamanda Azərbaycanın bu subyektlər arasında mübarizənin xarakterini müəyyənləşdirməyə yönəlik dövlət statusu qazanmasına nail olmuşdur. XX əsrin sonlarından başlayaraq beynəlxalq aləmdə gedən proseslərin əsas mahiyyəti güc mərkəzlərinin qlobal enerji resurslarına nəzarəti təmin etməsi üzərində qurulub və mübarizənin əsas nəticəsi də məhz bu nəzarətin hansı for-

mada təmin olunmasından asılı olacaq. Heydər Əliyev bu mübarizədən Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi üçün bacarıqla istifadə etmişdir. Və bu nəticənin əldə olunmasında da əsas ağırlıq ölkənin uğurlu neft strategiyasının üzərinə düşür. 1994-cü ilin 20 sentyabrında dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" bu mənada Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinin əsasını qoymuşdur. Həmin saziş nəticəsində bütün dünyanın diqqət mərkəzinə çevrilən Azərbaycan eyni zamanda qlobal məkanda özünün statusunu müəyyənləşdirməyə nail olmuşdur. Dövlət müstəqilliyinə dayanıqlı bu status əksər dövlətlərdən fərqli olaraq Azərbaycanın beynəlxalq subyektlərdən asılı tərəf kimi deyil, əksinə dünya birliyinin bərabərhüquqlu üzvü olması ilə ölçülür. Heydər Əliyev Xəzərin karbohidrogen ehtiyatlarını dünya bazarına nəql edəcək Bakı-Tiflis-Ceyhan strateji neft kəmərini təkcə Azərbaycanın deyil, ümumilikdə Cənubi Qafqaz-Mərkəzi Asiya regiounun gələcək taleyini müəyyənləşdirəcək strateji layihəyə çevirməyi bacarıb. Bu gün dünya dövlətlərinin regiondakı siyasətini məhz bu qlobal enerji layihəsinə nəzərən müəyyənləşdirməsi həm də Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin möhkəmləndirməsi yolunda apardığı gərgin işin əməli nəticəsi kimi qiymətləndirilməlidir.

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən əsas işlərdən biri ölkənin dünya birliyinə inteqrasiyasının təmin olunmasıdır. Heydər Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində bu problem öz həllini tam şəkildə tapmış və beynəlxalq təşkilatlarda bərabərhüquqlu səviyyədə əməkdaşlıq müstəqilliyin əsas qarantlarından birinə çevrilmişdir. Bu gün Azərbaycan dünyanın əksər dövlətləri ilə qarşılıqlı diplomatik əlaqələr yaradıb və 300-dən çox beynəlxalq təşkilatla əməkdaşlıq edir. Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Müstəqil Dövlətlər Birliyi, GÖUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Parlamentlərarası İttifaq, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu qurumların tamhüquqlu üzvü olan Azərbaycan paralel olaraq Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı kimi dünyada gedən proseslərin istiqamətini müəyyənləşdirən qurumlarla yüksək səviyyədə əməkdaşlıq edir. Bu nailiyyətlər Azərbaycanın müstəqilliyi istiqamətində Heydər Əliyevin yürütdüyü uzaqgörən siyasətin nəticəsi kimi meydana çıxıb. Yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan özünün coğrafi mövqeyindən, dünya miqyaslı coğrafi-strateji əhəmiyyətə malik təbii ehtiyatlarından, iqtisadi potensialından istifadə əsasında bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq edərək Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrini səmərəli şəkildə həyata keçirir. Azərbaycan prezidentinin müstəqilliyin möhkəmləndirilməsi istiqamətində apardığı uğurlu siyasətin nəticəsi kimi 2001-ci ilin əvvəllərində Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul olunub. Bu nüfuzlu qurumla hərtərəfli əməkdaşlıq edən ölkəmizin qazandığı uğurlardan biri də müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycan təmsilçisinin Avropa Şurasının rəhbərliyində təmsil olunmasıdır. Avropa Şurası Parlament Assambleyasının 2003-cü ilin yanvarında keçirilən sessiyasında Azərbaycanı bu nüfuzlu qurumda təmsil edən nümayəndə heyətinin rəhbəri İlham Əliyevin AŞPA-nın vitse-prezidenti və Büro üzvü seçilməsi Azərbaycanın müstəqillik yolunda apardığı uzunmüddətli mübarizənin ən uğurlu nəticələrindən biri hesab oluna bilər. Əslində beynəlxalq birliyə inteqrasiya, dünya dövlətləri və beynəlxalq qurumlarla bərabərhüquqlu tərəfdaşlıq müstəqilliyin əsas atributlarından biri olmaqla yanaşı, bu statusun qorunub saxlanması və möhkəmləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Heydər Əliyevin uğurlu xarici siyasəti Azərbaycanın müstəqilliyi üçün obyektiv qarantiyaların əldə olunmasında əsas rol oynamışdır və bu proses indi də davam edir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin müstəqilliyin möhkəmləndirilməsi yolunda apardığı uğurlu siyasətin əsas istiqamətlərindən biri də dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərin görülməsidir. Əslində ölkənin hərbi qüvvələrinin yaradılması dövlətçiliyin əsas atributu və qarantı hesab olunsa da, təəssüf ki, SSRİ dağıldıqdan sonra Azərbaycanda hakimiyyəti ələ keçirməyə müvəffəq olmuş qüvvələrin səbatsız siyasəti nəticəsində bu amil Azərbaycanın dövlətçiliyi üçün qarantiya deyil, təhlükəyə çevrilmişdi. Ordu quruculuğunda və ölkənin milli təhlükəsizlik sisteminin formalaşdırılmasında yol verilən ciddi səhvlər son nəticədə ölkədə qanunsuz hərbi birləşmələrin timsalında vətəndaş müharibəsinin subyektlərinin meydana çıxmasına səbəb olmuşdu. Ordunun siyasiləşməsi, dövlətçilik prinsiplərinə əsasən deyil, özəl siyasi maraqlara nəzərən formalaşdırılması sonda Azərbaycanın müstəqilliyi üçün ciddi manеəyə çevrilmişdi. Yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu tendensiyaya qarşı ciddi mübarizə aparmış və son nəticədə dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatçısı funksiyasını yerinə yetirən sabit, güclü silahlı qüvvələrin yaradılması mümkün olub. Bu gün Azərbaycan öz texniki və maddi təchizatına görə başqa dövlətlərin silahlı qüvvələrindən geri qalmayan hərbi qüvvələrə sahibdir. Bu da Heydər Əliyevin müstəqilliyin dövlətləşdirilməsi istiqamətində yürütdüyü ardıcıl siyasətin əsas nəticələrindən biridir. Azərbaycan Silahlı Qüvvələri dövlətin ərazi bütövlüyünün təminatçısı olmaqla yanaşı, həm də beynəlxalq hərbi qurumlarla bərabərtərəfli əməkdaşlıq edir. Heydər Əliyevin səyləri nəticəsində Silahlı Qüvvələr üçün milli kadr potensialının yaradılması istiqamətində ciddi işlər görülmüş, dünyanın ən nüfuzlu hərbi məktəblərinə təhsil almağa göndərilən müdavimlər Azərbaycanın müstəqilliyinin əsas qarantlarından biri olan ordunun güclənməsində mühüm rol oynamışdır. Bu gün Azərbaycan əsgər və zabitləri dünyanın bir çox qaynar nöqtələrində, Balkanlarda, Əfqanıstanda fəaliyyət göstərən sülhməramlı qüvvələrin tərkibində fəaliyyət göstərir və münaqişə zonalarında sülh və əmin-amanlığın bərqərar olmasında aktiv iştirak edirlər. Azərbaycan Silahlı Qüvvələri NATO kimi nüfuzlu qurumla əməkdaşlıq

edir, bu hərbi alyansın "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində həyata keçirdiyi təlim proqramlarında aktiv fəaliyyət göstərir. Ölkədə hərbi məktəblərin fəaliyyətinin gücləndirilməsi, Silahlı Qüvvələr üçün kadrların hazırlanması işinə xüsusi diqqət ayıran Heydər Əliyevin müstəqilliyin qorunub möhkəmləndirilməsi istiqamətində gördüyü ən böyük işlərdən biri sözsüz ki, ayrı-ayrı dövlətlərlə hərbi sahədə əməkdaşlığın möhkəmləndirilməsidir.

Azərbaycanın müstəqilliyinin qorunmasında sözsüz ki, əsas ağırlıq ordu ilə yanaşı milli təhlükəsizlik sisteminin üzərinə düşür. Düşmən qüvvələrin Azərbaycana qarşı məkrli planlarının aşkara çıxarılmasında mühüm rol oynayan bu strukturların güclənməsi işinə xüsusi diqqət ayıran Azərbaycan prezidenti Heydər Əliyev 1998-ci ilin dekabrında Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasını təsis edib və təhsil ocağında ölkənin təhlükəsizlik orqanları üçün kadrlar yetişdirilir. Heydər Əliyevin MTN sistemində milli kadrların yetişdirilməsinə yönəlik siyasəti öz bəhrəsini vermiş və məhz həmin kadrların fəaliyyəti nəticəsində Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəlmiş yüzlərlə təxribatların qarşısı alınmışdır. Artıq Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları ölkəmizə qarşı yönələn hər cür neqativ fəaliyyətin qarşısını almağa, sərhədlərin toxunulmazlığını təmin etməyə qadir şəkildə formalaşıb ki, bu da son nəticədə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdən müstəqilliyin dövlətləşdirilməsi istiqamətində apardığı uzaqgörən siyasətin uğurlu bəhrəsidir.

* * *

Təbii ki, sadalanan faktlar hər birimizdə iftixar hissi doğurur. Heydər Əliyev artıq Azərbaycan dövlətçiliyinin yaşaması, demokratik, hüquqi cəmiyyət quruculuğunun təmin edilməsi üçün bütün zəruri olan addımları atıb. Bu baxımdan cəmiyyət Heydər Əliyev ideyalarını milli dövlətçiliyin təməl prinsipləri hesab edir. Lakin təbii ki, bu proses gələcəkdə daha uğurla davam etdirilməlidir. Narahatlığa heç bir əsas yoxdur. Son 10 ildə Heydər Əliyev komandasında milli dövlətçilik ideyalarına bağlı, istedadlı siyasi nəsil formalaşıb. Və həmin siyasi nəslin perspektivli nümayəndələrindən biri də YAP sədrinin birinci müavini, millət vəkili, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevdir. İlham Əliyevin dərin siyasi erudisiyaya malik olması, beynəlxalq təşkilatlar müstəvisində milli mənafelərin qorunması istiqamətində ardıcıl səyləri, pozitiv şəxsi və siyasi keyfiyyətləri imkan verir ki, gələcəkdə Azərbaycan dövlətçiliyinin qorunması, Heydər Əliyev ənənələrinin davam etdirilməsi istiqamətində daha uğurlu addımlar atılsın.